UOT: 930.85:338.48:379.85
Mikayıl MUSTAFAYEV
tarix üzrə fəlsəfə doktoru, dosent,
AMEA Arxeologiya və Antropologiya İnstitutunun
"Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" şöbəsinin müdiri
mustafayev_info@yahoo.com
https://orcid.org/0000-0001-8462-9495

ASTARA RAYONUNUN TURİZM POTENSİALININ ARTIRILMASI ÜÇÜN ABİDƏLƏRİN QORUNMASI, BƏRPASI VƏ TƏBLİĞATI

Xülasə: Məqalədə Astara rayonunun Alaşa kəndində yerləşən Əlişa qalasının tarixi, arxeoloji və mədəni əhəmiyyəti, həmçinin onun regional turizm potensialına təsiri elmi əsaslarla təhlil olunur. 2023–2025-ci illərdə aparılan arxeoloji qazıntılar nəticəsində qalada dörd bürc, sitadel hissəsi, inkişaf etmiş kanalizasiya sistemi, lotusvari hovuz kompleksi, 8 metrlik su borusu və XII–XIV əsrlərə aid saxsı və memarlıq tapıntıları aşkar edilmişdir. Tapılan lotus formalı hovuzun Yaxın Şərq və Hindistan memarlığına bənzərliyi onun nadir memarlıq nümunəsi kimi dəyərləndirilməsinə səbəb olmuşdur.

Astara rayonunun dağlıq-düzənlik relyefi, Xəzər sahili boyunca yerləşməsi, subtropik iqlimi, termal bulaqları və Hirkan Milli Parkı kimi ekosistem resursları bölgənin ekoturizm və mədəni turizm sahəsində geniş imkanlara malik olduğunu göstərir. Eyni zamanda, Əlişa toponiminin etimoloji araşdırmaları onun ümumtürk toponimik sistemində tutduğu yer və Qazaxıstanla tarixi-etnoqrafik bağlılıqlarını ortaya qoyur.

Məqalədə turizmin davamlı inkişafı üçün yolların təmiri, infrastrukturun gücləndirilməsi, müasir qonaqlama obyektlərinin yaradılması, yerli əhalinin maarifləndirilməsi və turizm fəaliyyətinə cəlb olunması kimi kompleks tədbirlərin vacibliyi vurğulanır. Əlişa qalasının beynəlxalq sərgilərdə təqdim edilməsi, sosial mediada aktiv tanıtımı və turizm marşrutlarına daxil edilməsi həm mədəni irsin qorunması, həm də regionun sosial-iqtisadi inkişafı üçün strateji addım kimi təqdim olunur.

Açar sözlər: Astara, Əlişa qalası, xalq yaddaşı, arxeoloji irs, etnoqrafiya, tarixi abidə, turizm

Mikail MUSTAFAYEV

PRESERVATION, RESTORATION, AND PROMOTION OF MONUMENTS FOR ENHANCING THE TOURISM POTENTIAL OF THE ASTARA REGION

Abstract: The article provides a scholarly analysis of the historical, archaeological, and cultural significance of the Əlişa Fortress located in the village of Alaşa in the Astara region, as well as its impact on regional tourism potential. Archaeological excavations conducted between 2023 and 2025 revealed four towers, a citadel section, an advanced sewage system, a lotus-shaped pool complex, an 8-meter-long water pipe, and ceramic and architectural findings dating back to the 12th–14th centuries. The discovered lotus-shaped pool, resembling Middle Eastern and Indian architecture, has led to its recognition as a unique architectural example.

The mountainous-plain topography of Astara, its location along the Caspian Sea, subtropical climate, thermal springs, and ecological resources such as the Hirkan National Park demonstrate the region's vast potential in eco-tourism and cultural tourism. Additionally, the etymological study of the toponym "Alisha" reveals its place within the pan-Turkic toponymic system and its historical and ethnographic links with Kazakhstan.

The article emphasizes the necessity of comprehensive measures for sustainable tourism development, including road rehabilitation, infrastructure enhancement, establishment of modern accommodation facilities, public awareness-raising, and local community involvement in tourism

activities. The presentation of the Əlişa Fortress at international exhibitions, its active promotion on social media, and its inclusion in tourism routes are presented as strategic steps for both the preservation of cultural heritage and the socio-economic development of the region.

Keywords: Astara, Alisha Fortress, collective memory, archaeological heritage, ethnography, historical monument, tourism

Микаил МУСТАФАЕВ

СОХРАНЕНИЕ, ВОССТАНОВЛЕНИЕ И ПОПУЛЯРИЗАЦИЯ ПАМЯТНИКОВ ДЛЯ ПОВЫШЕНИЯ ТУРИСТИЧЕСКОГО ПОТЕНЦИАЛА АСТАРИНСКОГО РАЙОНА

Абстракт: В статье проводится научный анализ исторического, археологического и культурного значения крепости Элиша, расположенной в селе Алаша Астаринского района, а также её влияния на региональный туристический потенциал. В результате археологических раскопок, проведённых в 2023–2025 годах, в крепости были обнаружены четыре башни, цитадельная часть, развитая канализационная система, комплекс бассейнов в форме лотоса, водопроводная труба длиной 8 метров, а также керамические и архитектурные находки, датируемые XII–XIV веками. Найденный бассейн в форме лотоса, схожий с архитектурой Ближнего Востока и Индии, признан уникальным образцом архитектурного наследия.

Горная и равнинная местность Астаринского района, его расположение вдоль побережья Каспийского моря, субтропический климат, термальные источники и такие природные ресурсы, как Гирканский национальный парк, свидетельствуют о широких возможностях региона в сфере экотуризма и культурного туризма. Кроме того, этимологическое исследование топонима «Элиша» выявляет его принадлежность к обще тюркской топонимической системе и историко-этнографические связи с Казахстаном.

В статье подчёркивается важность комплексных мер для устойчивого развития туризма: ремонт дорог, укрепление инфраструктуры, создание современных объектов размещения, просвещение местного населения и его привлечение к туристической деятельности. Представление крепости Элиша на международных выставках, её активное продвижение в социальных сетях и включение в туристические маршруты рассматриваются как стратегические шаги по сохранению культурного наследия и социально-экономическому развитию региона.

Ключевые слова: Астара, крепость Алиша, народная память, археологическое наследие, этнография, исторический памятник, туризм

Giriş

Azərbaycan Respublikasında yerləşən çoxsaylı tarix və mədəniyyət abidələri dövlət tərəfindən qorunur. Ölkəmizdəki 6308 daşınmaz tarix və mədəniyyət abidəsi dövlət mühafizəsindədir. Bunlardan 82-si dünya, 2059-u ölkə və 4167-si yerli əhəmiyyətli abidələrdir. Bu sahədə Nazirlər Kabineti 2 avqust 2001-ci il tarixli №132 qərarı ilə dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısını təsdiq etmişdir. Son illərdə aparılmış monitorinqlər nəticəsində əvvəlki siyahılara daxil edilməyən 1400-dən çox tarix, memarlıq və arxeoloji əlamət daşıyan obyekt müəyyən edilib və yeni aşkar olunan tarix-mədəniyyət abidələri kimi qeydə alınmışdır [4].

Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində ölkəmizin qədim tarixə və zəngin mədəni irsə sahib olduğu təsdiqlənmişdir. Məsələn, Qax rayonunda Torpaqqala, Qazax rayonunda Baba-Dərviş, Fizuli rayonunda Azıx Mağarası, Naxçıvanda Gəmi Qaya, Bakıda isə Qobustan abidələri və s. ölkənin zəngin tarixi və mədəni irsini nümayiş etdirir. Bu abidələr, həmçinin Azərbaycanın turizm potensialının artırılmasına mühüm töhfə verir.

UNESCO və İSESCO ilə Əməkdaşlıq

Yuxarıda qeyd olunan dünya əhəmiyyətli abidələrin bir qismi UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. UNESCO 1945-ci ilin noyabrında Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu kimi 37 dövlətin nizamnaməni imzalaması ilə təsis edilmişdir. Təşkilatın əsas məqsədi irq, cins, din və dil fərqlərindən asılı olmayaraq xalqlar arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığı təşviq etməklə beynəlxalq sülh və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verməkdir. 1972-ci ildə UNESCO tərəfindən "Ümumdünya Mədəni və Təbii İrsin Qorunması" haqqında Konvensiya qəbul edilmişdir [2, s.8].

Eyni zamanda, 1979-cu ildə İslam dünyasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafını dəstəkləmək məqsədilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı – İSESCO yaradılmışdır. Azərbaycan Respublikası 1991-ci ildən İSESCO-nun üzvüdür. 1991-ci ildə qurulan qarşılıqlı münasibətlər uğurla inkişaf etmiş və bu əlaqələr 24 noyabr 2006-cı ildə ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İSESCO-nun xoşməramlı səfiri statusunun verilməsi ilə yeni mərhələyə qədəm qoymuşdur. Hal-hazırda İSESCO-nun beynəlxalq nüfuzu durmadan artır və Azərbaycan bu təşkilatla sıx əməkdaşlıq edərək dünya miqyasında mədəni irsin qorunması və təşviqi istiqamətində mühüm təşəbbüslərlə çıxış edir [8].

AMEA-nın Arxeoloji Abidələrin qeydiyyatı və Pasportlaşdırılması Şöbəsi

1993-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Antropologiya (o dövrdə Arxeologiya və Etnoqrafiya) İnstitutunda abidələrin mühafizəsi ilə bağlı "Arxeoloji abidələrin toplusu" adı altında şöbə yaradılmışdır. 2024-cü ilin may ayında şöbənin adı "Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" kimi dəyişdirilmişdir. Şöbənin fəaliyyətinin nəticəsi olaraq, bir çox yeni aşkar olunmuş abidələrin GPS koordinatları təyin edilmiş və pasportlaşdırılmışdır. Xüsusilə, Azərbaycanın cənub-şərq bölgələrində arxeoloji abidələrin dövlət mühafizəsinə götürülməsi üçün obyektlərin siyahıya alınması və mədəni irsin qorunması istiqamətində rəy bildirilməsi kimi işlər görülmüşdür. Bu dəyişikliklər nəticəsində, yeni aşkar edilmiş abidələrin GPS koordinatlarının təyin edilməsi və pasportlaşdırılması kimi fəaliyyətlər həyata keçirilmişdir. Azərbaycanın cənub-şərq bölgələrində arxeoloji abidələrin dövlət mühafizəsinə götürülməsi üçün obyektlərin siyahıya alınması və mədəni irsin qorunması istiqamətində rəy bildirilməsi işləri görülmüşdür. AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Arxeoloji abidələrin qeydiyyatı və pasportlaşdırılması" şöbəsinin əməkdaşları 15 iyul 2023-cü il tarixində Azərbaycanın cənub-şərq bölgəsində abidələrin qeydiyyata alınması ilə bağlı baxış keçirərək, Astaranın Alaşa kəndində yerləşən Əlişa qalasını aşkar etmişdir [6] (şək.1). Bu arxeoloji kəşf təkcə tarixi baxımdan deyil, həm də coğrafi və ekoloji baxımdan diqqətəlayiq olan Astara rayonunun turizm potensialını ön plana çıxarır.

Astara rayonu Azərbaycanın cənubunda yerləşir və təbii-coğrafi müxtəlifliyi ilə seçilir. Ərazi dağlıq və düzənlik relyefə malikdir; qərbdə Talış silsilələri, şimal-şərqdə isə Lənkəran ovalığı ilə əhatələnir. Rayonun Xəzər dənizi sahilində yerləşməsi və Talış dağlarının sıx meşə örtüyü onun ekosistem zənginliyini artırır. Mülayim subtropik iqlimi ilə seçilən bölgədə yanvar ayında orta temperatur -1,5°C ilə 4°C, iyulda isə 15–25°C arasında dəyişir. Astarada Yanar bulaq və İstisu kimi mineral mənbələr mövcuddur ki, bunlar həm sağlamlıq turizmi, həm də ekoturizm üçün əlverişli şərait yaradır. Rayonun 25,3%-i meşələrlə örtülmüşdür və nadir flora-fauna elementlərinə ev sahibliyi edir. Xüsusilə Hirkan Milli Parkı relikt bitkilərlə zəngin olması ilə turistlər üçün əhəmiyyətli məkandır [1].

Astara rayonu, həmçinin zəngin tarixi-mədəni irsə sahib olan bir bölgədir. Rayon ərazisində 400-dən çox tarixi və memarlıq abidəsi mövcuddur. Bu abidələr arasında Astara-Nəmin yolunun kənarı, Şindan dağında yerləşən VII əsrə aid olan Şindan qalası, Nudis kəndindəki qədim qala, Pensər kəndindəki Məşədi Abutalıb hamamı, Hacı Teymur və Hacı Cahanbaxış məscidləri, Şahağac kəndindəki türbə və Ərçivan kəndindəki Kərbəlayi Həmid Abdulla hamamı kimi nümunələr diqqət çəkir. Ərçivan kəndində kükürdlə zəngin bulaqlar mövcuddur ki, bu da turistlər üçün maraqlı məkanlardan biridir. Qapıçıməhəllə kəndində Daş və Tunc dövrlərinə aid daş

abidələr, Sipiyəpart, Seləkəran, Lomin və Pəlikəş kəndlərində VIII əsrə aid körpü qalıqları da turistik baxımdan əhəmiyyətlidir.

Astara rayonunda son orta əsrlərə aid Ləmləri (yay evi) ilə məşhurdur. Ləm, əsasən təbii materiallardan – daş, ağac və samanla tikilən müvəqqəti yaşayış evləridir. Bu evlər, yerli əhalinin yay aylarında heyvandarlıq və kənd təsərrüfatı ilə məşğul olduqları dövrdə istifadə olunur. Ləmlər, bölgənin ənənəvi memarlığını və həyat tərzini əks etdirən mühüm mədəni irs nümunələri kimi diqqət çəkir [9, s.199—221]

Əlişa Qalasının Bərpası və Turizm Potensialı

Astara rayonunun Alaşa kəndində yerləşən Əlişa qalasının tarixi və mədəni dəyəri nəzərə alınaraq, onun bərpası və qorunması vacib məsələlərdən biri kimi gündəmə gəlmişdir. Əlişa qalası, Astara rayonunun Alaşa kəndində yerləşən və zəngin tarixi ilə diqqət çəkən mühüm bir abidədir. 2023-cü ilin iyul ayında, Astara arxeoloji ekspedisiyasının apardığı arxeoloji qazıntılar nəticəsində qalanın dörd bürcdən ibarət olduğu müəyyən edilmişdir. Bu bürclərdən ikisi tamamilə dağılmış, digərləri isə qismən dağılmış vəziyyətdədir. Qalanın sitadel hissəsi isə yaxşı vəziyyətdə qorunub saxlanılmışdır.

Qazıntılar zamanı çoxsayda saxsı qab nümunələri, o cümlədən şirli və şirsiz qab qırıqları, kaşılar və s. aşkar olunmuşdur. Xüsusilə diqqət çəkən tapıntılardan biri də kanalizasiya xəttidir. Bu, qalanın inkişaf etmiş su təchizatı və kanalizasiya sisteminə malik olduğunu göstərir.

Bundan əlavə, IV əsrə aid saxsı qab parçaları və üzərində şir başı təsviri olan daş parçası tapılmışdır. Şir, əzəmət və qüdrətin simvolu olaraq qədim mədəniyyətlərdə mühüm yer tutmuşdur [6].

2024-cü ildə arxeoloji qazıntı işlərinin davamı nəticəsində Əlişa qalasında yeni maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Qazıntılar zamanı qalada bir neçə otaq, miniatur saxsı kaşılar və 8 metr uzunluğunda saxsı su borusu tapılmışdır (şək.2). Bu tapıntılar əsasən XII-XIV əsrləri əhatə edir və qalada möhtəşəm bir memarlıq abidəsinin varlığını göstərir [5].

2025-ci ildə Əlişa qalasında aparılan arxeoloji qazıntılar zamanı elmi baxımdan böyük önəm kəsb edən unikal memarlıq nümunəsi – lotusvari formada dizayn edilmiş daş hovuz kompleksi üzə çıxarılmışdır. Hovuzun konstruksiyası ümumilikdə 10 ləçəkdən ibarət olub, diametri təxminən 1,5 metrdir. Kompleksə əlavə olaraq, daimi su təchizatını təmin edən daş su kanalları və daş plitələrlə örtülmüş tikililər daxildir (şək.3).

Əldə olunan məlumatlara görə, bu hovuz kompleksi Azərbaycanda sənədləşdirilmiş nadir su qurğusu nümunəsi kimi qiymətləndirilir. Belə çoxləçəkli hovuz formaları daha çox Yaxın Şərq, İran və Hindistan regionlarında məlumdur və onun Azərbaycan ərazisində ilk dəfə aşkarlanması ölkənin qədim memarlıq və mədəni irsinin araşdırılmasında mühüm yenilik kimi dəyərləndirilir [3].

Əlişa qalasında aparılan arxeoloji tədqiqatlar nəticəsində üzə çıxan memarlıq nümunələri və XII–XIV əsrlərə aid maddi mədəniyyət tapıntıları abidənin tarixi dəyərini və dövrünü müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu nəticələr qalada sistemli tədqiqatların aparılmasının zəruriliyini göstərir və abidənin mədəni irs kontekstində qiymətləndirilməsinə imkan yaradır. Belə nümunələrin turizm dövriyyəsinə daxil edilməsi, həm ölkənin tarixi-mədəni irsinin qorunmasına, həm də regionun iqtisadi və sosial inkişafına real töhfə verə bilər.

Bu səbəbdən, Əlişa qalasının bərpası, turistik infrastrukturun yaradılması və yerli icmanın maarifləndirilməsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi vacibdir. Dövlət və özəl sektorun birgə əməkdaşlığı ilə bölgədə ekoturizm və mədəni turizmə dair yeni layihələrin icrası, Əlişa qalasının ölkə və dünya səviyyəsində tanıdılmasına töhfə verə bilər. Bunun üçün müasir turizm strategiyalarına əsaslanan marketinq fəaliyyətlərinin həyata keçirilməsi və mədəni irsin geniş kütlələrə təqdim olunması vacibdir [7, s.61].

Davamlı turizmin təşviqi üçün bölgədə infrastrukturun inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Yolların təmiri, nəqliyyat imkanlarının genişləndirilməsi və turistlər üçün müasir qonaqlama obyektlərinin yaradılması bu istiqamətdə prioritet addımlar sırasında yer alır. Eyni zamanda, yerli əhalinin turizm sahəsində maarifləndirilməsi, onların bu fəaliyyətlərə cəlb

olunması və əl işlərinin satışına dəstək göstərilməsi regionun sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

Turizm sahəsinin davamlı inkişafı yalnız fiziki infrastrukturla məhdudlaşmır; bölgənin tarixi-etnoqrafik xüsusiyyətlərinin öyrənilməsi də strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə Alaşa kəndinin toponimik mənşəyi diqqəti cəlb edir. Araşdırmalara görə, kəndin adı Qazaxıstanda bütün qazax tayfalarının ulu əcdadı kimi tanınan Alaşa xanla əlaqələndirilə bilər. Qazax xalq yaddaşında mühüm yer tutan bu mifoloji obrazın Ulıtaudakı məqbərəsi onun tarixi-mədəni çəkisini ortaya qoyur. Alaşa toponiminin Azərbaycanın cənub bölgəsində qeydə alınması orta əsr miqrasiyaları və monqol yürüşləri ilə izah edilə bilər. Beləliklə, bu toponim yalnız lokal səviyyədə deyil, ümumtürk toponimik sistemində də əhəmiyyət daşıyır.

Xorəzmşahlar dövründə türk tayfalarının miqrasiyası və ərazi fəthləri müxtəlif türk xalqlarının dil, mədəniyyət və adətləri arasında qarşılıqlı təsir formalaşdırmış, nəticədə Azərbaycan və Qazaxıstan arasında toponimik paralellərin yaranmasına zəmin yaratmışdır. Alaşa kəndinin dəniz səviyyəsindən 8 metr yüksəklikdə, UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş Hirkan Milli Parkının yaxınlığında, İranla sərhəddə yerləşməsi onun həm strateji, həm də ekoloji baxımdan mühüm mövqe tutduğunu göstərir. Toponimin etimologiyasına dair müxtəlif yanaşmalar mövcuddur; Talış dilində "aleşo" sözü həm "böyük həyat", həm də "at" mənasını verir, Azərbaycanda, xüsusilə Şəmkir bölgəsində isə "alaşa" ifadəsi "at" anlamında işlənir [10, s.18–21].

Beynəlxalq və Yerli Tanıtım

Əlişa qalasının turizm potensialını artırmaq məqsədilə müxtəlif beynəlxalq və yerli sərgilərdə təqdimatların keçirilməsi, sosial mediada aktiv tanıtım kampaniyalarının aparılması və turizm marşrutlarına bu abidənin daxil edilməsi nəzərdə tutulmalıdır.

Rayonun tarixi abidələrinin qorunması, bərpası və təbliği, həmçinin bölgənin turizm potensialının artırılması mühüm əhəmiyyət kəsb edir. Bu abidələrin bərpası və mühafizəsi, bölgənin zəngin mədəni irsinin gələcək nəsillərə çatdırılması ilə yanaşı, turizm sektorunun inkişafına da müsbət təsir göstərəcəkdir. Turistlər üçün cəlbedici olan bu abidələrin tanıdılması, həm yerli, həm də xarici turist axınının artmasına səbəb olacaqdır. Mədəni irsin qorunması və turizmin inkişafı istiqamətində aparılan tədbirlər yerli iqtisadiyyatın güclənməsinə və yeni iş yerlərinin yaradılmasına şərait yaradacaqdır. Bununla yanaşı, dövlət və özəl sektorun əməkdaşlığı ilə turizm infrastrukturunun inkişaf etdirilməsi, yolların təmiri, nəqliyyat imkanlarının genişləndirilməsi və turistlər üçün müasir qonaqlama obyektlərinin yaradılması vacibdir. Həmçinin, yerli əhalinin turizm sahəsində maarifləndirilməsi və onların turizm fəaliyyətlərinə cəlb edilməsi, bölgənin iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Beynəlxalq və yerli sərgilərdə Astara rayonunun tarixi abidələrinin təqdim edilməsi, sosial mediada aktiv tanıtım kampaniyalarının aparılması və turizm marşrutlarına bu abidələrin daxil edilməsi bölgənin turizm potensialını artıracaqdır. Bu tədbirlər həmçinin yerli əhalinin mədəni irsə olan marağını artıracaq və onların turizm sahəsində fəaliyyətə cəlb edilməsinə kömək edəcəkdir.

Nəticə

Əlişa qalası yalnız bir arxeoloji abidə deyil, həm də Azərbaycan tarixinin və mədəniyyətinin canlı şahidlərindən biri kimi mühüm əhəmiyyət daşıyır. Onun bərpası, tədqiqi və turizm dövriyyəsinə daxil edilməsi mədəni irsimizin qorunması və davamlı inkişafı istiqamətində atılan mühüm addımlardan biridir. Bu istiqamətdə AMEA Arxeologiya və Antropologiya İnstitutunun, yerli idarəetmə orqanlarının və beynəlxalq təşkilatların əməkdaşlığı mühüm rol oynayır.

Ədəbiyyat

1. Astara Rayon İcra Hakimiyyəti. Coğrafi mövqeyi // Astara-ih.gov.az. – Tarix məlum deyil. – URL: http://astara-ih.gov.az/az/page/13.html
2. Azərbaycan - UNESCO əməkdaşlığı dinamik şəkildə inkişaf etdirilir // İki sahil. – 2014. – 17 may. – S. 8. –https://anl.az/down/meqale/iki_sahil/2014/may/370478.htm
3. Azərbaycan Milli Elmlər Akademiyası. Akademik İsa Həbibbəyli Astarada arxeoloji qazıntı işləri ilə tanış olub // AMEA-nın rəsmi saytı. – 2025. – URL: https://science.gov.az/az/news/open/32974
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti. "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərara dəyişiklik edilməsi barədə 31 avqust 2020-ci il tarixli 318 nömrəli Qərar. – URL: https://e-qanun.az/framework/45817
5. Mustafaev M. Astara rayonu, Alaşa kəndi ərazisində yerləşən Əlişa və ya Divaka qalasında 15 iyul – 13 avqust 2024 tarixlərində aparılmış arxeoloji tədqiqatların hesabatı. – Bakı: AMEA Arxeologiya və Antropologiya İnstitutu, 2024.
6. Mustafayev M. Əlişa (Divəkə) qalası: Astara rayonunun Alaşa kəndində yerləşən Əlişa (Divəkə) qalasında 7 sentyabr – 6 oktyabr 2023 tarixlərində ilkin arxeoloji qazıntı işlərinin hesabatı. – Bakı: AMEA Arxeologiya və Antropologiya İnstitutu, 2023.
7. Turizmin davamlı inkişafı yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait. – Bakı, 2012. – 61 s.
8. Азербайджан — ИСЕСКО // Azerbaijan.az. – URL: https://azerbaijan.az/ru/related-information/200
9. Джавадов Г. Д. Талыши (Историко-этнографическое исследование). — Баку: Elm, 2004. — 616 с
10. Мустафаев М., Гусейнова Н. Крепость Алиша на территории южной части Азербайджана в селе Алаша // Азербайджанский журнал исторических исследований. – Алматы, 2024. – № 5. – С. 18–21.



Şəkil 1. Əlişa qalasının ümumi görüntüsünün bir hissəsi.



Şəkil 2. 2024-cü ildə aşkar edilmiş 8 metr uzunluğunda saxsı su borusu.



Şəkil 3. 2025-ci il arxeoloji ekspedisiyası zamanı tapılmış, 10 ləçəkli çiçək formasında su hovuzu.

Məqalənin redaksiyaya daxilolma tarixi: 10.07.2025

Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.07.2025

Məqalənin çapa qəbul olunma tarixi: 27.08.2025